**Niyazi Mehdi**

# Kamal Abdullanın diskursları...

**Bildirdiklərindən bilinənlərə**

qanun nəşriyyatı

*"Kamal Abdullanın diskursları... Bildirdiklərindən bilinənlərə"* adlanan bu kitab özündə professor Niyazi Mehdinin adlı-sanlı yazar və alimin 30 ildə yazdığı elmi-bədii əsərləri haqqında olan məqalələrini, şərhlərini toplayır. Kamal Abdullanın çoxcildlik əsərləri, – bu öygünü indi söyləmək olar, çünki Vaqif İbrahimoğlu, Rəhman Bədəlov, Aydın Talıbzadə, Ramiz Rövşən kimi parlaq adamların imzaları onun haqqında heyranlığı doğrulayır, – Azərbaycan mentalitetinin, elminin və bədiyyatının ortaya çıxardığı yeni ideyaların, yanaşımların qaynağıdır. Bu kitabda Niyazi Mehdi Kamal Abdullanın təkcə Azərbaycan üçün yox, dünya elminə və mədəniyyətinə verdiyi yetənəkləri açmağa çalışmışdır.

**Niyazi Mehdi. KAMAL ABDULLANIN DİSKURSLARI...**
**Bildirdiklərindən bilinənlərə.** – Bakı: Qanun Nəşriyyatı, 2024, 160 səh.

Janr: elmi ədəbiyyat
Ölçü: 120x185 mm
Cild: yumşaq
Çapa imzalandı: 30.07.2024

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| Elmi redaktor və son sözün müəllifi: | Maral Yaqubova<br>*Filologiya üzrə fəlsəfə doktoru, dosent* |
| Redaktor: | Toğrul Mehdi<br>*Filologiya üzrə fəlsəfə doktoru* |
| Korrektor: | Əyyar Tahir |
| Texniki redaktor: | Əsəd Qaraqaplan |
| Qapaq dizaynı: | Rafael Qasım |
| Mətn dizaynı: | Rahilə Şamilqızı |

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-813-8

© Qanun Nəşriyyatı, 2024
© Niyazi Mehdi, 2024

# MÜNDƏRİCAT


ÖN SÖZ........................................................................................7

KAMAL ABDULLANIN ARAŞDIRMALARINDA BİLDİRİLƏNLƏR VƏ BİLİNƏNLƏR.......................................10

"Əvvəl-axır yazılanlar" kitabının semantik orbiti......................10

Gizli "Dədə Qorqud" ........................................................17

""Kitabi-Dədə Qorqud" poetikasına giriş" əsərindən bilinənlər.....................................................................21

"Dilçiliyə səyahət" kitabı haqqında açıqlama ............................35

"Mənim Füzulim"i refleksiya edəndə ........................................39

Bizi ağıllandıran nəzəriyyə haqqında bizi ağıllandıran kitab ...47

KAMAL ABDULLANIN BƏDİİ MƏTNLƏRİNİN SEMANTİK DALĞALARINDAN............................................55

Kamal Abdullanın dekonstruksiyasından açılan izlər… ..........55

Kamal Abdulla və Eyvaz Tahanın semantik/asemantik sayrışmaları.........................................................................64

Professor Maks Statkiyeviç "Yarımçıq əlyazma"nı necə refleksiya edib?.............................................................................67

"Unutmağa kimsə yox..." romanına eklektik düşüncələr estetikasından yanaşmaq cəhdi ..................................................70

“Eklektik düşüncələr estetikasına və “Unutmağa kimsə yox...” romanına daha bir açıqlama ........ 77
“Unutmağa kimsə yox...”un paraloqizmi ........ 85
“Sehrbazlar dərəsi” romanı haqqında intervü ........ 91
“Çəngəl çiçəyi” hekayəsində bilinmələr labirinti ........ 94
“Sirlərin sərgüzəşti”ni mənim açarımla açanda ........ 100

МЕЖДУ САМЫМИ БЛИЗКИМИ ТОЧКАМИ ВСЕГДА ЕСТЬ ТРЕТЬЯ ТОЧКА ........ 107
Следы из деконструкции, произведенной Камалом Абдулла ........ 107
Отправляясь от мнемонического дискурса Камала Абдуллы ........ 115
Из обсуждения романа К.Абдуллы “И некого забыть” ........ 136
“Exposure” or the deconstruction of “Kitabi-Dede Qorqud” ........ 139

SON SÖZ ƏVƏZİ. NOETİK HƏZZİN REFLEKSİYASI ........ 149

# ÖN SÖZ

Bu yazılarımı Kamal Abdulla ilə 52 illik dostluğumuzu anaraq onun 70 illiyinə yubiley hədiyyəsi kimi toplamışdım. 30 ildən çox bir vaxtda onun elmi araşdırmaları və bədii əsərləri haqqında yazdıqlarımı bir daha oxuyanda gördüm ki, onlar bu illər boyu dostumun və mənim hansı paradiqmalarda düşünməyimizin, yazıb yaratmağımızın göstəricisi kimi Azərbaycan düşüncə tarixi üzrə araşdırıcılara ilginc ola bilər.

80-ci illərdən bu yana Azərbaycan intellektuallığı hansı paradiqmalarda düşünməyi, hansı narrativlərdə söyləməyi tapmışdı və öyrənmişdi? Tapmaq ayrıca adamın bacarığına aiddir, ona görə də “Kamal Abdulla elmi və bədii yaradıcılığında nələri tapmışdı?” sorusunda konkretləşir. “Öyrənmişdi” isə “Kamal Abdulla Batı və Doğu elmindən, mədəniyyətindən nələri götürmüşdü?” sorusunda konkretləşir.

İndi bizdəki ədəbiyyatşünas yazılarda “diskurs” termini artıq dəbə minmişdir. Onu ilk dəfə mən post-strukturalistlərdən götürərək “Yarımçıq əlyazma”nı anlayıb anlatmaq üçün işlətmişdim. Bu, mənim nəyi

götürməyimə örnəkdir, hərçənd Kamalı nədənsə bu termin tutmamışdı. Məni isə tutmuşdu modernlik aurasına görə, çünki nə üçünsə məhz postmodernistlər və poststrukturalistlər onu işləkləşdirmişdilər. Bu terminin etimolojisi vurnuxma, ard-arda düzlənmə, manevr etmə kimi anlamlarla bağlı idi, sonralar metaforik olaraq söhbət mənasında da işlənirdi. Fəlsəfədə "diskursivlik" düşüncənin zəncir kimi düzlənməsini bildirirdi və intuitivliyə qarşı qoyulurdu. Semiotika bu düzlənməni hörgü anlamından çıxmış tekstlə bildirdi. Postmodernistlər isə verbal tekstlərə diskurs dedilər. Deməyinə deyirdilər, ancaq bəzi kontekstlərdə duyulurdu ki, verbal tekst yerinə diskurs sözünü işlədəndə elə bir deyim tipini vurğulayırlar ki, aforistik, ya iti, ya tutumlu xarakter daşıyır. Mən "Yarımçıq əlyazma" ilə bağlı mətn yerinə "diskurs" işlədəndə bu çaları qabartdım. İndi isə oxuduğunuz kitabın başlığına çıxaranda Kamal Abdulla düşüncəsinin sıxılmış, enerji dağarcığına çevrilmiş deyimlərdə bildirilməsini nəzərdə tuturam. Bu yerdə Kamal diskursları ilə bağlı bildirmə və bilinmə sözlərini də anladım. Diskursla onu aydıran müəllif hansısa mənanı bildirir. Ancaq bu diskurslardan həm də elə gizli mənalar bilinir ki, heç söyləyənin də ağlına gəlmir. Bu anlamda yazılarım həm Kamalın diskurslarının bildirdiklərini açır, həm də bu bildirdiklərindən bilinənləri açıqlayır.

Bir daha əziz dostumu yubileyi ilə bağlı qutlayıram. “O olmasaydı, mən belə olmazdım” diskursundan itələnərək bunu deməliyəm: Kamal Abdullanın elmə və sənətə verdikləri olmasaydı, mənim də onları yozmaq əsasında tapdığım nəsnələr olmazdı. Son on illər Azərbaycanda çoxlu yaxşı məqalələr və bədii əsərlər yaradılıb. Ancaq nədənsə məhz Kamalın diskursları məndə fəlsəfə, elmlə bağlı özümə ləzzət verən, Puşkin kimi “ay da sukin sın” nidasını qoparan nəsnələr olubdur. Ancaq əslində, bilirəm, nədən belə nəsnələr olubdur!

# KAMAL ABDULLANIN ARAŞDIRMALARINDA BİLDİRİLƏNLƏR VƏ BİLİNƏNLƏR

## "Əvvəl-axır yazılanlar" kitabının semantik orbiti

*1990-cı ildə "Yazıçı" nəşriyyatı Kamal Abdullanın "Əvvəl-axır yazılanlar" ədəbi-bədii esselərini çapdan çıxartdı. Söz dünyamız – Qərbdə deyərdilər, loqosferamız bir az aforizmə oxşayan, bir az mistik olan cümlə qazandı: "Əvvəl-axır yazılanlar"... Əgər bu yazılanlar bənzərsiz "Mən"in içindən doğulursa, həmin "Mən" yazmasaydı, yazılmazdı da. Əgər bu yazılanlar əvvəl-axır yazılandısa, deməli, Sən yazmasan da Mən (və ya O, Onlar) yazacaq. İstəmədim, düşünüm ki, yazar gözəl ad vermək ədasına məntiqi qurban verib. Ancaq məntiqimiz elə qurban veriləsidir...*

70 illik bir dövrdə "ən elmi" fəlsəfənin vuran və sığallayan əli ilə "elmi şəkildə idarə olunan" Kut dünyamız, mənəvi həyatımız ayrıca bir məntiqlə sümüklənib-damarlanmışdı. Bu məntiqin "olar-olmazları" vardı.

"Olmazları" deyirdi, çox kədərlənmək olmaz, öz içində az əlləş, başqa mədəniyyətlərə, başqa şüurlara, başqa ölkələrə az səyahət et, etsən də geri qayıdanda az dəyişib qayıt. Bu məntiqin "olarları" deyirdi, özümüzü, öz iqtisadi, siyasi, düşüncə sistemimizi, yetənəklərimizi sonsuzluğacan öymək olar, tənhalığa qarşı, mistikaya qarşı, Allaha qarşı nəyi deyə bilsən, deyəndə (hansı əxlaqi-mədəni oyun qaydalarını pozsan) halaldır.

Ancaq bu məntiq elə qurban veriləsi məntiq idi. Bu məntiq öyrədirdi ki, ideologiyaya qulluq edən kitablarımızdan görünən Sovet adamı, Sovet Azərybaycanının adamı ekzistensiyasız bir adamdı. Tarixdə isə ekzistensiyasız adam bəlkə insan sürüsündə olub.

Ekzistensiyasız adamın içindən (özü-özündən) qorxusu yoxdur, ekzistensiyasız adamın içindəki qaranlıqlara bürünmüş dərinliklərdən, sonsuzluqlardan da xəbəri yoxdur. Ona elə gəlir ki, içi dışarısındakı toplumdan düşən işıqda gün kimi aydındır.

Ancaq Sovet Azərbaycanında, əslində, belə adamlar azdı. Kitab, məqalə yazanda, camaat qarşısında çıxış edəndə isə özünü ekzistensiyasız varlıq kimi göstərənlər çox idi.

"Əvvəl-axır yazılanlar", məncə, Anarın "Sizsiz"indən sonra ilk ekzistensial yazıdır. "Sizsiz" də ekzistensiyadan təcəlli edir, ancaq "Əvvəl-axır yazılanlar"ı ekzistensiyanın başqa təcəllisi kimi, sözdə və sözsüzlükdə, səssizlikdə bilinməsi kimi yaşadım. Niyəsi bir az sonra açılacaq...

Ekzistensiya insanın başqalarından xəlvət, başqalarının yaxşı anlamadığı iç yaşamıdır, axıb-gedir. Ölüm haqqında düşüncə və duyğular ki, kimlərisə Allaha, kimlərisə allahsızlığa aparıb çıxarır, kimlər üçünsə yaşamağı mənasızlaşdırır, kimlər üçünsə yaşamağı ruhun sınağı edib mənalandırır, ekzistensiyalaşdırma işini görən problemlərdən biri olur. Kədər, təklik, iç dünyamızın səssizliyində dünyadan aldıqlarımıza qulaq tutmaq, iç dünyamızın dərinliklərinə gedib buradan başqalarının dərinliklərini duymaq bacarığına çıxmaq hamısı ekzistensiallaşdırma axımını yaradır. Ekzistensiya duyğulardan çıxan düşüncə ilə toqquşmaqdır, düşüncədən gurlaşan, burulğanlaşan duyğulara batmaqdır. "Əvvəl-axır yazılanlar" bu ekzistensiyanın axımına bizi alıb aparır. "Əvvəl-axır yazılanlar" o demək deyil ki, Kamalın yazdığını kimsə əvvəl-axır yazacaqdır. O deməkdir ki, Azərbaycanda da kimsə əvvəl-axır ekzistensiyasını kitabında səyahət yoluna çevirəcəkdir.

Bu kitab bütün səmtlərə səyahətdir. Azərbaycanlı, müsəlman qutuna çox doğma olan "ordan-burdan" söhbətdir. Ordan-burdan söhbət etmək ora-bura yola çıxıb qayıtmaqdır. Bu mənada esse bizə doğmadır. Ancaq yazıqlar olsun ki, esse yazılar Azərbaycanda – bu doğma yerində hələ yaxşıca məskən salmayıb. Azərbaycanlı ruhu, psixiyası, mentaliteti əvvəl-axır esselərdə çoxaçımlı bilintisini almalıdır. Deyirlər ki, Yusif Səmədoğlu bir dəfə yana-yana söyləmişdi: – *"Azərbaycanlı beynində*